Tarix və onun problemləri, №1-2 2009

**İBRAHİM ZEYNALOV**
*tarix elmləri doktoru, professor*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI (2003-2008-ci illər)

***Son dörd ildə 650 mindən çox iş yeri yaradılmışdır ki, bunların da 450 mindən çoxu daimi iş yerləridir. 8,5 milyon əhalisi olan ölkə üçün bu kifayət qədər yüksək göstəricidir. Son 4 ildə 1200 məktəb tikilmiş, onların hamısı kompüterləşdirilmişdir. Səhiyyəyə, insanları narahat digər məsələlərə – infrastruktura, elektrik stansiyalarına, su, qaz kəmərlərinə, ekoloji proqramlara böyük vəsait qoyuruq.***

***Azərbaycanda makroiqtisadi göstəricilər ən yüksək səviyyədədir və dünyada bunun analoqu yoxdur... Bu onu göstərir ki, Azərbaycanın inkişafı çox davamlı şəkildə, fasiləsiz gedir, heç bir geriləmə, heç bir yubanma yoxdur, heç bir yanlış qərar qəbul edilməyib, yaxud da addım atılmayıb. Atılan bütün addımlar Azərbaycanın güclənməsinə xidmət göstərir.***

**İLHAM ƏLİYEV**

Hələ 2003-cü il prezident seçkiləri ərəfəsində «biz qarşıdakı beş ildə 600 min yeni iş yeri yaradacağıq» - deyə İlham Əliyevin həmin vədini mümkünsüz bir vəd adlandıranlar çox idi. Lakin, o vaxtdan dörd il yarım keçir və nəticə göz qabağındadır. Bu faktdır ki, son dörd ildə 650 mindən çox iş yeri açılmışdır ki, bunların da 450 mindən çoxu daimi iş yerləridir. Respublikada iri infrastruktur layihələri reallaşdırılmaqdadır, bu gün Azərbaycan neft strategiyasını uğurla həyata keçirən Azəbaycan Respublikası öz neftini üç ölkənin – Rusiya, Gürcüstan və Türkiyə ərazilərindən keçən üç boru kəməri vasitəsilə ixrac etmək imkanı əldə etmişdir. Həmçinin, Azərbaycan qazını tarixdə ilk dəfə olaraq dünya bazarına çıxaran kəmər inşa edilmişdir.

2003-cü il 15 oktyabr prezident seçkilərindən 5 il keçir. Bu illər Azərbaycanda sosial-iqtisadi və mədəni quruculuq sahəsində dərin dəyişikliklər baş vermiş, müstəqil dövlət quruculuğunun, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin yeni bir mərhələsinə çevrilmişdir.

Aparılmış araşdırmalar göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2003-cü ilin oktyabrından apardığı məqsədyönlü siyasət ölkəmizdə demokratik islahatların, sosial-iqtisadi inkişafın təmin edilməsində, Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmləndirilməsində, insan hüquq və azadlıqlarının qorunmasında əhəmiyyətli rol oynamışdır.

Böyük Britaniyanın ən nüfuzlu qəzetlərindən olan «Financial Timec»in səhifələrində tez-tez Azərbaycanda gedən sosial-iqtisadi proseslərinə, uğurla həyata keçirilən neft-qaz siyasətinə, ölkənin regionda və bütövlükdə beynəlxalq miqyasda artan nüfuzuna, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllinə, insan hüquqlarının qorunması ilə bağlı görülən tədbirlərə geniş yer verilməklə, qeyd edilir ki, bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin xidmətidir.

Qəzetdə dərc olunmuş məqalələrdə ölkə prezidenti İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti geniş şəkildə işıqlandırılmışdır. Qəzetdə Ulu öndər Heydər Əliyevin neft strategiyasını uğurla davam etdirən İlham Əliyevin bu sahədəki siyasəti təqdirəlayiq he-

sab edilir, 2003-2007-ci illər Azərbaycanın neft və qaz sənayesində ən uğurlu illər kimi tarixə çevrildiyi vurğulanır.

Heydər Əliyev məktəbinin yetişdirməsi, onun layiqli davamçısı İlham Əliyevin 2003-cü ilin oktyabrından ölkə prezidenti kimi fəaliyyətə başladığı zaman kəsiyi Azərbaycanın tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcına çevrilmişdir. Heydər Əliyevin idarəçilik kursunun davam etdirilməsinin zəruriliyini şərtləndirən ən başlıca amil bu kursun bütövlükdə Azərbaycanın dövlətçilik maraqlarının həyata keçirilməsinə yönəldilməsindən ibarətdir.

Aparılan təhlillər və ümumiləşdirmələr göstərir ki, 2003-cü ilin oktyabrından keçən dövrdə ilk növbədə insan amili, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqları, onların mənafeləri ilə bağlı olan amillər, demokratiyanın genişləndirilməsi, insanların sərbəst fəaliyyətinə şəraitin yaradılması, daxili və xarici siyasətdə Heydər Əliyevin iş təcrübəsinin davam etdirilməsi önə çəkilmişdir. Bunun nəticəsidir ki, qeyd olunan qısa zaman kəsiyində ölkəmizin sosial-iqtisadi həyatında çox böyük uğurlu nəticələr əldə edilmiş, keyfiyyətli dəyişikliklər baş vermişdir.

Respublika Prezidentinin son dörd ildə imzaladığı «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» üzrə nəzərdə tutulan tədbirlərin ardıcıl olaraq həyata keçirilməsi nəticəsində regionların tarazlı və davamlı inkişafına, sosial infrastrukturun yenidən qurulmasına, bölgələrdə sahibkarlığın və özəl sektorun yüksəlməsinə şərait yaradılmış və respublika iqtisadiyyatının neft amilindən asılılığının qeyri-neft sektorunun inkişafı hesabına aradan qaldırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

2008-ci il fevralın 13-də Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üç illiyinə həsr olmuş konfrans keçirilmişdir. Konfransda üç ildə görülən işlərə yekun vurulmuşdur. Aparılmış hesablamalar göstərmişdir ki, üç ildə Respublika üzrə 520 min 343 yeni iş yeri açılmışdır, yoxsulluğun səviyyəsi 49 faizdən 20 faiz səviyyəsinə düşmüşdür. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilən kreditlərin həcmi xeyli artırılmışdır. Fond tərəfindən 5885 layihə maliyyələşdirilmişdir. Nəticədə, bu dövrdə 15 min 560 yeni müəssisə işə salınmışdır.

Keçən üç il müddətində Respublikanın ayrı-ayrı regionları, rayonları üzrə də uğurlu nəticələr əldə edilmişdir.

Təcrübə göstərir ki, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində görülən tədbirlər, həm də Azərbaycanın ümumi tərəqqisinin başlıca şərtini təşkil edir.

Bu baxımdan 2003-cü ildən keçən qısa müddətdə bu sahədə çox ciddi işlər görülmüşdür və bu işlər bu gün də davam etdirilməkdədir. Bu müddətdə sahibkarlığın və özəl sektorun inkişafına daha böyük önəm verilmişdir. Son üç il müddətində ölkə üzrə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilən kreditlərin həcmi 155,5 milyon manat təşkil etmişdir. Fond tərəfindən 5385 layihə müəyyənləşdirilmişdir. Bu dövrdə yaradılmış yeni müəssisələrin çoxu regionların payına düşür:

**Abşeron iqtisadi rayonu** üzrə 30 min 610 yeni iş yeri yaradılmış, 849 müəssisə açılmış, rayona yönəldilən kreditlərin ümumi məbləği 21,4 milyon manat olmuşdur. **Aran iqtisadi rayonu** üzrə 149 min 216 yeni iş yeri, 1500 müəssisə açılmışdır. Nəticədə işsizlərin sayı xeyli azalmışdır. **Gəncə-Qazax iqtisadi rayonu** üzrə 56 min 261 yeni iş yeri açılmış, 808 müəssisə fəaliyyətə başlamışdır ki, bu sahəyə də 17,6 milyon manat kredit ayrılmışdır. **Quba-Xaçmaz iqtisadi rayonu** üzrə 31 min 537 yeni iş yeri yaradılmışdır. Bu iqtisadi rayonda 352 müəssisə işə düşmüşdür. **Naxçıvan iqtisadi rayonunda** isə 24 min 812 iş yeri açılmış, 958 yeni müəssisə işə düşmüş və burada işlərin təşkilinə dövlət tərəfindən 10,7 milyon manat kredit ayrılmışdır. **Dağlıq Şirvan iqtisadi rayonu** üzrə isə 209

müəssisə işə salınmışdır ki, bu da işsizliyin xeyli yaxşılaşdırılmasına gətirib çıxarmışdır. Bu zonada gənclərin çoxu işsizlikdən Rusiya və digər ölkələrə getməli olurlar. Yeni iş yerlərinin açılması ilə bu prosesin qarşısı xeyli alınmışdır. Həmçinin **Şəki-Zaqatala iqtisadi rayonu** üzrə 26 min 426 iş yerinin yaradılmasına 1,7 milyon manat kreditdən istifadə edilmişdir. **Qarabağ iqtisadi rayonu** üzrə 330 yeni müəssisənin açılması ilə 12 min 198 iş yeri açılmışdır. **Lənkəran iqtisadi rayonunda** isə 49 min 519 iş yeri yaradılmış, 602 yeni müəssisə açılmış, 11,9 milyon manat kredit ayrılmışdır.

Aparılmış təhlillər göstərir ki, Cəlilabad, Masallı, Lerik, Yardımlı iqtsadi zonalarının inkişafında da əldə edilən nailiyyətlər az deyil. Lənkəran iqtisadi rayonuna daxil olan Cəlilabadda son vaxtlar əhəmiyyətli işlər görülmüşdür. Son vaxtlar burada «Cəlilabad-Broyler» ASC-nin tam fəaliyyətə başlaması istiqamətində işlər sürətləndirilmiş, «Cəlilalad Kərpic» ASC-nin fəaliyyəti bərpa olunmuş, «Kristal» MMC-nin konserv zavodu, «Nuranə» özəll tibb məktəbi, 400 şagirdlik Alar kənd orta məktəbi və yüzlərlə müəssisə tikilərək istifadəyə verilmişdir. Son dörd ildə Cəlilabad rayonunda 2004-2005-ci illərdə 7 min yeni iş yeri yarıdılmışdırsa, bu rəqəm 2007-ci ildə 28 min çatdırılmışdır. Masallıda «EM-BAWOOD» MMC-nin mebel fabriki, «Nur-M» Səhmdar Cəmiyyətinin konserv zavodu, «Dəstvənd» müasir tipli mehmanxana kompleksi tikilib istifadəyə verilmiş, «İstisu Fatmeyi-Zəhra» sanatoriyasının fəaliyyəti genişləndirilmiş, xırda və orta sahibkarlığın inkişafına diqqət artırılmışdır. Yardımlıda isə kəndli-fermer təsərrüfatlarının yaradılmasına üstünlük verilmişdir.

Onu da qeyd edək ki, Heydər Əliyevin iqtisadi-sosial siyasəti 2003-2004-ci illərdə də uğurla davam etdirilməsinin nəticəsidir ki, mikroiqtisadi göstəricilər keyfiyyətcə yeni səviyyəyə qalxıb, özəl fəaliyyətin inkişafına dinamizm verilib, maliyyə intizamının gücləndirilməsi, yoxsulluğun mərhələlərlə azaldılması, regionların iqtisadi-sosial, mədəni inkişafı, işsizliyin azaldılması istiqamətində mühüm dəyişikliklər baş vermişdir.

Lakin aparılmış təhlillər göstərir ki, bütün bunlarla yanaşı hələ də bir sıra sosial-iqtisadi problemlər qalmaqdadır. O cümlədən əhalinin real pul gəlirləri ilə istehlak səbəti arasında tarazlığın təmin edilməsi sahəsində problemlərin həlli ləng gedir. Hətta elm, təhsil, səhiyyə və bir sıra digər sahələrdə çalışan işçilərin real pul gəliri ilə istehlak səbəti arasında çox böyük uyğunsuzluq mövcuddur.

Həmçinin son dörd ildə bazar iqtisadiyyatına keçid istiqamətində tədbirlərin həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, regionlarda özəl təsərrüfatların və sahibkarlığın təsərrüfat fəaliyyətinin tənzimlənməsi, yaxşılaşdırılması nəticəsində ümumi daxili məhsulda qeyri-dövlət büdcəsinin xüsusi çəkisi 2003-cü ildə 1993-cü ildəki 40,1 faizdən 73 faizə qədər, 2007-ci ildə isə 73 faizdən 81 faizə qalxmışdır. Ölkədə sahibkarlığı inkişaf etdirmək məqsədilə 2006-cı il müvəkkil kredit təşkilatları vasitəsilə respublikanın 59 şəhər və rayonu üzrə 1771 sahibkarlıq subyektinin investisiya layihəsinin müəyyənləşməsinə 90,1 milyon manat güzəştli kredit verilib.

Hesablamalar göstərir ki, 2007-ci ildə də ümumi daxili məhsulun istehsalı xeyli artmış, 24,6 milyard manata çatmışdır. Həmçinin əhalinin 4,5 faiz artması şəraitində 2008-ci ilin əvvəlinə yoxsulluğun səviyyəsi 2003-cü ilə nisbətən 2,5 dəfə azalmışdır. 2003-cü ildə ölkə əhalisinin 45-50 faizi yoxsulluq şəraitində yaşayırdısa, indi bu rəqəm 16-17 faizə enmişdir. Bu ilk növbədə regionların sosial-iqtisadi inkişaf proqramının uğurla həyata keçirilməsi sayəsində baş vermişdir.

2007-ci ildə Azərbaycanın regionlarında 145 min yeni, o cümlədən 105 min daimi iş yeri, 2003-cü ilin oktyabrından 2008-ci ilin əvvəlinə qədər olan dövrdə isə 645 min yeni iş yeri açılmışdır.

Regionların sosial-iqtisadi inkişafı, həm də əhalinin maddi-rifah halının yaxşılaşdırılmasında, onların pul gəlirinin, əməkhaqqının artırılmasında da az rol oynamamış-

dır. Belə ki, elm, təhsil işçilərinin, büdcə təşkilatlarında çalışanların aylıq əməkhaqları orta hesabla 25 faiz, Milli Elmlər Akademiyasının tabeçiliyində olan elmi-tədqiqat müəssisələrində çalışanların əmək haqqı 50 faiz, eləcə də aspirantlara, ali, orta ixtisas, peşə məktəbləri və şagirdlərinə verilən təqaüdlərin aylıq məbləği orta hesabla 50 faiz, məcburi köçkünlərə verilən aylıq müavinətin məbləği 50 faiz artırılmışdır. Adambaşına düşən pul gəliri 2008-ci ilin əvvəlinə 2006-cı illə müqayisədə 38 faiz artaraq 1670 manata, orta aylıq əməkhaqqı 42 faiz artaraq 214 manata, təyin olunmuş aylıq pensiyanın orta məbləği 44 faiz artaraq 59 manata çatmışdır.

Bu da bir faktdır ki, sərbəst bazar iqtisadiyyatına keçid və regionların sosial-iqtisadi inkişafına yönəldilmiş digər tədbirlər də kənd təsərrüfatı sahələrinin inkişafına xüsusi önəm verilir.

Azərbaycan Respublikasının Prezidentinin Sərəncamına əsasən 2007-ci ilin dövlət büdcəsindən 80 milyon manat vəsaitin ayrılması hesabına ötən il 598 min 806 nəfər fiziki şəxs və 12 hüquqi şəxs əkin sahəsinin becərilməsindən istifadə edilmiş yanacaq və motor yağlarına, mineral gübrələrin güzəştlə satılmasına, buğda istehsalçılarına səpilən hər hektar sahəyə görə yardımın (40 manat) verilməsi təmin edilmiş, bu məqsədə 68,9 milyon manat vəsait sərf olunmuşdur.

Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) qəbul edildikdən sonra bütün dövlət idarəetmə orqanlarında regionlara münasibət köklü şəkildə dəyişmiş, regional inkişaf həyata keçirilən iqtisadi siyasətin əsas hədəfinə çevrilmişdir. Bu proqram ilk növbədə dövlət büdcəsi hesabına həyata keçirilir ki, bu da regionların xüsusi çəkisinin durmadan artmasını təmin etmişdir. Müqayisə üçün qeyd edə bilərik ki, 2007-ci ildə dövlət investisiya xərclərində regionlardakı tədbirlərin (layihələrin) həyata keçirilməsinə ayrılan vəsaitin ümumi məbləği 2006-cı ildəkindən 7,3 dəfə çox olmuşdur.

Son iki ildə regionlarda bir sıra irimiqyaslı tikintilər həyata keçirilmişdir. Bu baxımdan Səngəçalda modul tipli elektrik stansiyasının, Oğuz-Qəbələ-Bakı su xəttinin, Yuxarı Mil kanalının, Tovuzçay və Şəmkir su anbarlarının, Yevlax-Zaqatala-Gürcüstan avtomobil yolunun inşası, Lənkəran və Zaqatala hava limanlarının yenidən qurulması, çoxlu sayda səhiyyə, təhsil, idman komplekslərinin, şəhid və əlil ailələri üçün yaşayış binalarının tikintisi və digər nəzərdə tutulan layihələr həyata keçirilmişdir.

Təkcə, 2006-cı ildə 407 emal müəssisəsi, 712 tikinti müəssisəsi, 500-ə yaxın kənd təsərrüfatı müəssisəsi, 1000-dən çox ticarət və xidmət müəssisəsi açılmışdır ki, bunun da 40 faizi regionların payına düşür. Həmçinin kənd təsərrüfatı istehsalçılarına, vergi güzəştlərinin müddətinin uzadılması, dövlət büdcəsinin vəsaitləri hesabına texnika və digər kənd təsərrüfatı vasitələri alınaraq, əlverişli şərtlərlə fermerlərə verilməsi kənd təsərrüfatı istehsalının artırılmasına səbəb olmuşdur.

Təcrübə göstərir ki, regionlarda iqtisadi imkanların yaradılması ilə əldə olunan ümumi iqtisadi artımın bazasında əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi tədbirlərini əhatə edir ki, bunun da təməlində duran başlıca amillərdən biri də regionların sosial-iqtisadi inkişafıdır.

Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2007-2008-ci illər)nın Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2005-2015-ci illər)nın müəyyənləşdirdiyi başlıca vəzifələr, ölkənin sonrakı inkişafında mühüm mərhələni təşkil edə bilər.

Aparılmış təhlillər və faktların müqayisəsi göstərir ki, 1995-2007-ci illərdə respublikadakı iqtisadi-sosial dirçəliş, inkişaf, əsasən neft sektoru ilə bağlı olmuşdur. İqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatında iqtisadi artım dinamik şəkildə artmışdır. Təkcə, 1995-2001-ci illərdə ÜDM 2,5 dəfə, sənaye məhsulu 3,5 dəfə, xa-

rici ticarət 2,2 dəfə artmışdır. 2007-ci ildə isə ümumi daxili məhsulun istehsalı 2006-cı illə müqayisədə 24,7 faiz artmışdır. Regionlarda qeyri-neft sektoru üzrə artım 11 faiz təşkil etmişdir. Aparılmış ümumiləşdirmə göstərir ki, son 4 ildə 2003-2007-ci illərdə Azərbaycanın iqtisadiyyatı 2,1 dəfə, onun qeyri-neft sektoru 1,9 dəfə artmışdır.

Təkcə, 2006-cı ildə 17,7 milyard manatlıq ümumi daxili məhsul istehsal edilib ki, bu da 2005-ci illə müqayisədə 34,5 faiz çoxdur.

Aparılmış təhlillərdən, ümumiləşdirmələr göstərir ki, 2003-2007-ci illərdə 1995-2003-cü illərdəki iqtisadi-sosial inkişaf dinamikası inkişaf etdirilmiş;

- kənddə sahibkarlığın davamlı inkişafı yeni mərhələyə daxil olmuş, istehsalın imkanları, adamların yaradıcıllığı, aqrar bölmənin bütün sahələrində sahibkarlığa əsaslanan yeni mülkiyyətçilər qrupu yaranmışdır.
- Regionların sosial-iqtisadi inkişafı yüksəldikcə istehsal sahələrində idarəetmə strukturları təkmilləşdirilir və bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılır.
- Kənd təsərrüfatı və regionların digər istehsal sahələri, məhsulların istehsalı sosialist təsərrüfatından fərqli olaraq, bazarın tələb və təklifinə uyğun formalaşmaqla davam etməkdədir.
- Aparılmış ümumiləşdirmələr göstərir ki, 2003-2007-ci illərdə regionların sosial-iqtisadi inkişafı sərbəst bazar iqtisadiyyatının prinsiplərinə əsaslanmışdır.

2003-2007-ci illərdə də dövlətin regionların sosial-iqtisadi inkişafına qayğısı və yardımı artmaqda davam etmişdir. Regionların sosial-iqtisadi inkişaf sürəti artdıqca onun siması dəyişir, abadlaşma davam edir, genişlənir, adamların yaşayış səviyyəsi, onların maddi-rifah halı yüksəlir. Həmçinin respublikanın regionlarından qonşu respublikalara iş dalınca gedənlərin sayı azalır, bu sahədə sabitlik yaranır.

2003-2007-ci illərdə regionların sosial-iqtisadi inkişafında müxtəlif istehsal sahələrində çalışanların, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalçılarının bütün vergilərdən (torpaq vergisi istisna olmaqla) azad edilməsi, köhnə vergi borcların silinməsi, yanacağın onlara güzəştlə satılması, gömrük idxal tariflərinin onların mənafelərinə uyğunlaşdırılması mühüm rol oynamışdır.

Bu illərdə Respublika Prezidenti İlham Əliyevin qayğısı və köməkliyi ilə regionlarda fəaliyyət göstərən iş adamlarının, istehsalçıların maariflənməsi, qabaqcıl təcrübələrə yiyələnməsi, onların informasiya sistemləri ilə təmin olunmasında böyük imkanlar yaradılmışdır.

2003-2007-ci illərdə regionların sosial-iqtisadi inkişafı davamlı olaraq yüksəldikcə, respublikanın ümumi iqtisadi inkişafında irəliləyişlər baş vermiş, ümumi daxili məhsulun istehsal səviyyəsi artmış, yoxsulluq həddi aşağı düşmüş, əhalinin maddi rifah halı yaxşılaşmış, minimum aylıq əmək haqqı, adamların real gəliri çoxalmış, ərzaq təhlükəsizliyinin təmin edilməsinə əməl olunmuş, respublikada ekoloji vəziyyət yaxşılaşmaqda davam etmişdir.

Bu illərdə regionlarda emal müəssisələrinin sayı 25 faiz artmış, kənd təsərrüfatı məhsulları istehsal edən yeni müəssisələr meydana gəlmişdir. Bir çox emal müəssisələrinin məhsulları beynəlxalq sərgilərdə təmsil olunmuş və mükafatlara layiq görülmüşdür. Məsələn, Respublika kənd təsərrüfatı məhsulları İngiltərə Beynəlxalq Kral sərgisində, Çin Xalq Respublikasının Beynəlxalq sərgisində, Rumıniya, Rusiya, Ukrayna və bir çox digər ölkələrin beynəlxalq sərgilərində müxtəlif medallara və beynəlxalq diplomlara, qiymətli mükafatlara layiq görülmüşdür, beynəlxalq sertifikatlar qazanılmışdır.

Regionlarda yeni müəssisələrin yaradılmasına, onların müasir texnologiya ilə təmin edilməsində az iş görülməmişdir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsi ilə regionlarda torpaqdan, istehsal müəssisələrindən istifadə qaydaları keyfiyyətcə təkmilləş-

dirilib, kənd təsərrüfatı məhsullarının, yeyinti və yüngül sənaye məhsullarının emalı güclənmiş, yeni texnologiyaya, müasir standartlara cavab verə bilən emal sənayesi sahələri yaradılmışdır, kiçik və orta həcmli emal müəssisələrinin sayı 2 dəfədən çox artmış, kəndin maliyyə-kredit təminatı yaradılmağa başlamışdır, kənd təsərrüfatının sığorta sistemi yeniləşdirilmişdir, kəndin təşkilatlanması – kənd icmalçılarının yaradılması, peşə maraqlarına uyğun cəmiyyətlərin, assosiasiyaların, kooperativlərin (kredit, alqı, satqı, emal və s.) sahəsində ciddi addımlar atılmışdır.

2003-2007-ci illərdə regionlarda mədəni-maarif, təhsil, səhiyyə, idman və digər mədəni-quruculuq sahələrində sanballı işlər görülmüşdür.

Kəndin sosial problemlərinin həlli sahəsində də - fasiləsiz enerji təminatı, içməli su və qaz problemi, orta məktəblərinin təmiri, yenilərinin tikilməsi, yeni xəstəxana binalarının tikilməsi sahəsində əhəmiyyətli işlər görülmüşdür. Demək olar ki, respublikanın bütün şəhər və rayonlarında müasir standartlara cavab verən idman kompleksləri tikilib istifadəyə verilmişdir. Lənkəran, Zaqatala, Quba-Xaçmaz, Qəbələ, İsmayıllı və dənizkənarı ərazilərdə istirahət ocaqları salınmışdır.

Həmçinin son dörd il yarımda regionların sosial-iqtisadi inkişafında əldə edilən uğurlar, həm də regionlarda yaşayan insanların tələbatlarının ödənilməsinə, yoxsulluğun azaldılmasına, insanların sosial-rifah halının yüksəlməsinə xidmət etmişdir.

## *ƏDƏBİYYAT*

1.Əliyev H.Ə. «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramının təqdimatına həsr olunmuş ümummilli konfransda nitq». – «Azərbaycan» qəzeti, 26 oktyabr 2002.
2.Heydər Əliyev siyasi məktəbini öyrənirik. Bakı, 1997.
3.Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur. Bakı, 2003.
4.Heydər Əliyevin neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə, Bakı, 2001.
5.Heydər Əliyev və Azərbaycan neft dünya siyasətində. I-III, Bakı, 1997; IV-V, Bakı, 2001.
6.Əliyev İ.H. «Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı». « Azərnəşr», Bakı, 1997.
7.Əliyev İ.H., Muradverdiyev A. Azərbaycan nefti dünya siyasətində. I-III c., Bakı, 1997-1998.
8.Əliyev İ.H. Ölkəmizin inkişafı çox dinamikdir, çox müsbətdir və hərtərəflidir. «İqtisadiyyat» qəzeti, 26 oktyabr 2007.
9.«Azərbaycan» qəzeti, 28 fevral 2007.
10.«Azərbaycan» qəzeti, 16 aprel 2008.
11.Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarım. «Azərnəşr», Bakı, 2004.
12.Azərbaycan Respublikası (1991-2001). Bakı, 2001.
13.Müstəqil Azərbaycan 10 il. ARDSK, 2001.
14.Qətiyyətin təntənəsi. Bakı, 1995.
15.Neft strategiyası – İlham Əliyev. Mən istənilən səviyyədə istənilən mübarizəyə hazıram. Bakı, 2001.
16.Azərbaycan statistik göstəriciləri – 2003. Bakı, 2003.
17.«Azərbaycan» qəzeti, 12 yanvar 2008.
18.«Respublika» qəzeti, 14 fevral 2007.
19.Mehdiyev R. «Əsil vətəndaş, böyük şəxsiyyət və qüdrətli Lider haqqında bəzi düşüncələr». «Azərbaycan» qəzeti, 2 və 3 aprel 2008.
20.«2003-cü ildə ölkəmizin iqtisadi və sosial inkişafının yekunları: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Məlumatı». «Xalq» qəzeti, 7 fevral 2004.
21.«Regionların inkişafı iqtisadi strategiyasının əsas istiqamətlərindən biridir». «Azərbaycan» qəzeti, 21 noyabr 2004.

**ИБРАГИМ ЗЕЙНАЛОВ**

## ПРЕЗИДЕНТ АЗЕРБАЙДЖАНА ИЛЬХАМ АЛИЕВ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ РЕГИОНОВ

Статья посвящена подписанному президентом Азербайджанской Республики Ильхамом Алиевым «Программы социально-экономического развития регионов Азербайджанской Республики», и задачам, вытекающих из этого документа, а также успехам, достигнутым за прошедший с подписания указа год.

В статье, на основании фактов и интересных материалов, раскрывается исторический опыт социально-экономического развития республики, как продолжение начатого общенациональным лидером Г.Алиевым экономического курса и придание ему динамичности в современных условиях, создание приоритетных условий для дальнейшего совершенствования регионов республики. В статье уделяется большое внимание изучению целенаправленной деятельности и роли президента республики Ильхама Алиева в социально-экономическом развитии регионов в 2003-2007 годах.

I.Kh.Zeynalov

## The president of the Azerbaijan Republic, Ilham Aliyev and the Socio-economic development of the region

This article is dedicated to "The program of socio-economical development of the regions of Azerbaijan Republic" Signed by Ilham Aliyev, the president of the Azerbaijan Republic and the problems coming out of this document, and as well as the successes achieved during the year when this document was approved.

Here on the basis of the facts and the intersecting materials reveals out some historical experience of socio-economical development of the Republic, as the continuation of the once begun the all-national leader H.Aliyev the economical course and giving it the dynamicity conditions, creating of some priority conditions for the further improvement of the regions of the Republic. They pay special attention to the learning of the purposeful activity and the role of the president of Azerbaijan Republic Ilham Aliyev in socio-economical development of the regions in 2003-2007s.